

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 54-55 (7516-7517) • 1933-cü ildən nəşr olunur • Cümə, 30 noyabr 2018-ci il. • news@qebele-ih.gov.az


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***27 noyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

***26 noyabr***

Dövlət başçısı İlham Əliyev ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuperi və yevangelist icmasının nümayəndəsi Conni Muru qəbul edib. Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub.

***22 noyabr***

Prezident İlham Əliyev Türkmənistana rəsmi səfəri çərçivəsində Aşqabadda "Xalq xatirəsi" memorial kompleksini ziyarət edib, Olimpiya Kompleksi və Türkmən milli xalça muzeyi ilə tanış olub.

Azərbaycan və Türkmənistan prezidentlərinin təkbətək və geniş tərkibdə görüşləri olub.

Azərbaycan və Türkmənistan prezidentləri mətbuata birgə bəyanatla çıxış ediblər.

Azərbaycan, Türkmənistan sənədləri imzalanıb.

***20 noyabr***

Prezident İlham Əliyev Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında digər sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələri nümayəndələrinin arasında da ənənəvi olaraq uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirib, eyni zamanda, bu sahədə əlaqələrin daha da fəallaşdırılmasının vacibliyini qeyd edilib.

* * *

Azərbaycanın dövlət başçısı İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin dövlət başçıları arasında müntəzəm görüşlərin əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynadığını qeyd edib və bu görüşlərin ölkələrimizi bir-birinə daha da yaxın etdiyini bildirib.

---

**İlham ƏLİYEV:** *"Azərbaycanda ümumi vəziyyət, sabitlik, inkişaf əlbəttə ki, xarici və yerli investorları daha da stimullaşdırır. Təsadüfi deyil ki, son 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulubdur".*

# Azərbaycan qlobal sərmayələr üçün cəlbedici məkana çevrilir



***Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən iqtisadi strategiya nəticəsində yaradılan çox saylı müasir sənaye müəssisələri daxili tələbatı ödəməklə yanaşı, burada istehsal olunmuş yüksək keyfiyyətli məhsulların xarici bazarlara çıxışına da geniş imkanlar açır. Uğurlu sənayeləşmə siyasəti yola salmağa hazırlaşdığımız 2018-ci ildə də yüksək templə davam etmişdir.***

Ölkə Prezidenti bu ilin fevral ayının 27-də Sənaye Parkında "Tekstil MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin, iyulun 18-də Kimya Sənaye Parkının ərazisində "SOCAR Polmyer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun və sentiyabrın 18-də Sənaye Məhəlləsinin açılışını edib.

Noyabr ayının 16-da isə cənab İlham Əliyev Kimya Sənaye Parkında 3 müəssisənin "Tabaterra" Qapalı Səhmdar cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin, "Baku non Ferrans and Foundry Company" MMC-nin əlvan metallar terroərintlər zavodunun və inşaat kimyəviləri zavodunun açılışlarını həyata keçirib.

Qeyd etmək lazımdır ki, 2013-cü ildə açılışı olmuş 508 hektarlıq ümumi ərazisi olan Kimya Sənaye Parkında hazırda 12 sənaye müəssisəsi fəaliyyət göstərir ki, burada 7000 nəfərədək işçi çalışır. Bu müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı "Made in Azerbaijan" brendi ilə xarici bazarlara da ixrac edilir.

Məlumdur ki, hazırda ölkəmizə dəyəri milyonlarla dollar həcmində olan tütün məhsulları idxal edilir. Kimya Sənaye Parkında istifadəyə verilən "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinə məxsus tütün məmulatları fabriki ölkəmizin tütün məmulatlarına olan tələbatının 80 faizini ödəyəcək fabrikdə il ərzində 11 milyard ədəd 3 növdə filtirli siqaretlər buraxılacaq. Bundan başqa fabrikdə "British Amerikan Tobacco", "Japan Tobacco İnternational," "İmperial Tobacco" şirkətlərinin məhsulları da lisenziya əsasında istehsal olunacaqdır. Bu şirkətlərin məhsulları bu vaxtadək ölkəmizə idxal olunurdu. Beləliklə bu fabrikin işə düşməsi nəticəsində 200 nəfər daimi işlə təmin olunmuşdur. Bundan başqa fabrikin işə düşməsi xaricdən idxal olunan siqaretlər üçün sərf olunan valyutanın ölkəmizdə qalmasına şərait yaratmışdır.

Kimya Sənaye Parkında fəaliyyətə başlayan inşaat kimyəviləri zavodu beynəlxalq miqyaslı İsveçrə şirkətinin 100 faiz xarici kapitallı müəssisəsidir. 3,5 milyon dollar dəyəri olan müəssisədə 60 nəfər daimi işlə təmin olunacaq.

Müstəqil Azərbaycanın gələcək inkişafı ilə bağlı düşünülmüş mühüm layihələrdən biri də modern sənayeləşmədir. Son illərdə yeni dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini daha da sürətləndirib.

Bu ilin 10 ayında qeyri-neft məhsulları ixracının 12 faiz, ümumi ixracın isə 37 faiz artması bir daha təsdiqləyir ki, ixrac artıqdca ölkənin iqtisadi vəziyyəti daha da yaxşılaşır.

Uğurlarımız beynəlxalq reyting təşkilatları tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının sonuncu hesabatında ölkəmiz biznes mühitinə görə 25-ci yerdə qərarlaşıb. Keçən il isə Azərbaycan 57-ci yeri tutmuşdur. Ölkəmizdə biznes mühitinin yaxşılaşması da öz növbəsində Azərbaycanı xarici sərmayədarlar üçün cəlbedici edir.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**